

## Qəbələ

*Sən mənim sevimli elim-obamsan,*
*Qoynunda doğuldum özüm, Qəbələ!*
*Vuruldum mən sənin gözəlliyinə,*
*Heyrandır hüsnünə gözüm Qəbələ!*

*Tarixlərdən sən qalmısan yadigar.*
*Yurdumuzda şöhrətin var, adın var.*
*Sərin sulu, hay-haraylı çayın var,*
*Dillərdə dastandır bizim Qəbələ.*

*Lazanın yolları bəzəkdir sənə,*
*Muçuq şəlaləsi səs salıb elə,*
*Sinəndə çay axır beledən-belə,*
*İstərəm qoynunda gəzim Qəbələ!*

*Adınla tanınır fındığın, qozun,*
*Şahdağın qoynunda bazarın, düzün,*
*Var Həcər qeyrətli gəlinin, qızın,*
*İzin ver, bunları yazım Qəbələ!*

*Yazı gözəl olur dağda, çəməndə,*
*Bülbüllər oxuyur səsi gələndə,*
*Yetişmiş meyvəni özün dərəndə,*
*Elə bil cənnətdir bizim Qəbələ!*

*Səmədin qəlbində gülür arzular,*
*Sonalı gölün var, isti suyun var.*
*Dağda şəlalələr, düzdə quzun var.*
*Vardır o yerlərdə izin Qəbələ.*

## XƏYAL DÜNYASINA APARDI MƏNİ

*Tanınmış jurnalist Sədaqət Kərimovanın 70 illiyinə ithaf edirəm.*

*Ellərdən ellərə yayıldı səsin,*
*Xalqımı sevənsən mehriban ana,*
*Tənha bir ağacın pıçıltı səsi,*
*Dinlədim sonadək, daldım xəyala.*

*Sənət dünyasında tanındı adın,*
*Samurla sularla qoşa yaşadın,*
*Çətin yollar aşdın özün ucaldın,*
*Ömrün uzun olsun Sədaqət xanım.*

*Həzin mahnıların səsi, sədası,*
*Xəyal dünyasına apardı məni,*
*İllərin zəhməti, sənət dünyası,*
*Zirvədən zirvəyə qaldırdı səni.*

*Dolanaraq şəhərləri, kəndləri,*
*Millətini tanıtmısan dünyada,*
*Arayıb, axtarıb illərdən bəri,*
*Dilimizi gətirmisən sən yada.*

*Qələmin düşmədi əlindən sənin,*
*Millətin halına yanan sən oldun.*
*Arxası dayağı doğma ellərin,*
*Halına, dərdinə qalan sən oldun.*

*Sizi xalqımızın dəyəri kimi,*
*Dedim sevənlərin qəlbinə yazım.*
*Şair Süleymanın dediyi kimi,*
*Sıfırı yeddinin yanından pozum.*

*Atalar bu sözü deməyib əbəs,*
*Aslanın dişisi, erkəyi olmaz.*
*Yubileyin mübarək Sədaqət xanım,*
*Vallah qocalmaq sənə yaraşmaz.*

*Səməd Səmədov,*
*dövlət qulluqçusu*